.

# Aysel Sadak İltaş




Aysel Sadak İltaş Qarsın İğdır bölgəsində anadan olmuşdur. İlk, orta, tam orta təhsilini və Dədə Qorqud Təhsil İnstitutunu Qarsda tamamladıqdan sonra ardıcıl olaraq İstanbul Texniki Universiteti (İTÜ) Türk Musiqisi Dövlət Konservatoriyasını və Bakı Dövlət Universitetinin Hüquq fakültəsini bitirmişdir. Konservatoriya və Mərmərə Universiteti Kommunikasiya fakültəsində magistratura və doktorantura pillələri üzrə təhsil almışdır. 1996-cı ildə kommunikasiya elmləri üzrə fəlsəfə doktoru (PhD) dərəcəsini qazanmışdır.

**ÇALIŞDIĞI QURUMLAR** Milli Təhsil Nazirliyi (MEB) Fundamental Müəllimlik, "Milliyet" Qəzeti Nəşriyyat Qrupu "Hey" jurnalı – müxbir, "Milliyet" qəzeti – müxbir, "Sevgi Çemberi" jurnalı (fiziki məhdudiyyətli şəxslər üçün) – baş redaktor, "Günaydın" qəzeti "Bazar söhbəti" – iqtisadiyyat yazarı, TRT – parlament müxbiri, sərbəst jurnalistika; dosent (Yard. Doç. Dr.) qismində Ərzurum Atatürk Universiteti Kommunikasiya fakültəsinin müəllimi; Bakı Dövlət Universiteti, "Təfəkkür" Universiteti və Avrasiya Universitetində dəvətli mühazirəçi kimi fəaliyyət göstərmişdir. Uzun illər çalışdığı TRT qurumundan 2026-cı ildə təqaüdə çıxmışdır.

**ƏSƏRLƏRİ**

Yazılı əsərləri: Kars'ta Doğumdan Ölüme İnanışlar, Kars'ta Nanay Havaları İncelemeleri, Sovyetler Birliği Kitle İletişim Araçlan ve Perestroika ile Olan Değişimler. Azerbaycan-Bosna Savaşları ve Basında Yer Alış Biçimerinin Değerlendirilmesi, Herkesin Bir Meseli Var Görsel Eserler: Savaşın Çocukları, İnsan Yüreği ile Haydar Baba

.

Filmləri: (Azerbaycan Bosna Çocuklan) 4 Bölüm, Yol Boyu Insan Yol Boyu Kafkasya 4 Bölüm. Onlar Bizim Kadınlarımız - 10 Bölüm, Yıldızlı Öğrenciler- 30 Börüm, Madalyalı Hayatlar-25 Bölüm, Hayat Akarken - 10 Bölüm

## MÜKAFATLARI

1991-1993-cü illər Türkiyə Əlillər Dərnəyi (TSD) "İlin Jurnalisti"; 1994-cü il Əlillər Konfederasiyası "İlin Jurnalisti"; 1996-cı il Türkiyə Jurnalistlər Cəmiyyəti "İlin Xəbər Proqramçısı"; 1996-1999-cu illər Azərbaycan "Təfəkkür" Universiteti "İlin Xarici Jurnalisti"; 2000-2001-ci illər Azərbaycan Türk Qadınlar Birliyi "İlin Türk Jurnalisti"; 2008-ci il Qaradənizlilər Dərnəyi (TRT-dəki proqramına görə); Zorakılıqsız Cəmiyyət Dərnəyi "Zorakılığa Məruz Qalan Jurnalist" mükafatı və digər müxtəlif peşəkar mükafatlar.

## VƏZİFƏ ALDIĞI İCTİMAİ TƏŞKİLATLAR

Türkiyə Əlillər Dərnəyi – mətbuat məsləhətçisi; Qadın Namizədləri Dəstəkləmə Dərnəyi (KA-DER) – Şərqi Anadolu təşkilatlanma məsul şəxsi; Heyvanları Qoruma Dərnəyi; Azərbaycan Türk Qadınlar Birliyi; Zorakılıqsız Cəmiyyət Dərnəyi – təhsildən məsul İdarə Heyətinin üzvü; Qars-Ardahan-İğdır (KAİ) Fondu.

15 fevral-15 aprel 2026-cı il tarixlərində Dr. Aysel İltaş Bakı Slavyan Universitetinin Sosial elmlər və regionşünaslıq ixtisası üzrə təhsil alan tələbələrə “Telexəbərdə etika” və “Xarici ölkələrin jurnalistika tarixi” fənlərinə dair mühazirələr oxumuşdur.